UOT 334.36

*Ceyhun Şakir oğlu TAĞIYEV*
*AMEA-nın İqtisadiyyat İnstitutu, dissertant*
*E-mail: jeyhun_85@mail.ru*

# SAHİBKARLIQ FƏALİYYƏTİNİN İNKİŞAFINDA VERGİ TƏNZİMLƏNMƏSİNİN ROLU

*Xülasə*

**Tədqiqatın məqsədi** – ölkəmizdə sahibkarlıq fəaliyyətinin inkişafında vergi tənzimlənməsi elementlərindən istifadənin mexanizminin müəyyən edilməsi.

**Tədqiqatın metodologiyası** – sahibkarlıq strukturlarında fəaliyyətin inkişaf etdirilməsi məqsədilə vergiyə cəlbetmənin metodikası, stimullaşdırma məqsədilə tətbiq olunan güzəştlər, azadolmaların reallaşdırılması üsullarından ibarətdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – sahibkarlıq strukturlarında fəaliyyətin inkişaf etdirilməsində vergi tənzimlənməsi elementlərindən istifadə olunması yolu ilə səmərəliliyin artırılması.

**Tədqiqatın nəticələri** – aparılan araşdırma vasitəsi ilə müəyyən edilmişdir ki, vergi tənzimlənməsi elementlərinin tətbiq olunması sahibkarlıq strukturlarında fəaliyyətin səmərəliliyinin təmin edilməsinin əsas mənbələrindən biridir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – Respublikamızda sahibkarlıq strukturlarının vergiyə cəlb olunmasında istifadə edilən stimullaşdırma vasitələri ilə yanaşı dünya təcrübəsində tətbiq olunan müsbət meyillərin tətbiqi üzrə verilən təkliflər orijinal və yenidir.

***Açar sözlər: sahibkarlıq, vergilər, vergi tənzimlənməsi, vergi güzəştləri, vergi tətilləri, stimullaşdırma.***

## *Giriş*

İstənilən ölkənin iqtisadi həyatında sahibkarlıq fəaliyyəti həlledici rola malikdir. Bu fəaliyyət növünün səmərəli nəticələri çoxsaylı amillərin təsiri altında formalaşır. Bu amillərə ölkənin iqtisadiyyatının strukturu, ölkədə aparılan iqtisadi siyasətin hədəf və prioritetləri, həmin siyasətin əsas məqsəd və vəzifələri, bazardakı rəqabət mühiti, iqtisadi sahibkarlıq strukturlarının rəqabətqabiliyyətlilik səviyyəsi və s. aid edilə bilər. Belə mühüm amillərdən biri də sahibkarlıq strukturlarının fəaliyyətinin vergilər vasitəsilə tənzimlənməsidir. Bu amil çox hallarda sahibkarlıq strukturlarının fəaliyyəti üçün həlledici faktorlardan birinə çevrilir.

Məlum olduğu kimi sahibkarlıq strukturlarının fəaliyyətində mühüm rol oynayan vergiqoyma iqtisadi subyektlərin gəlirlərinin bir hissəsinin, yəni əvvəlcədən müəyyən olunmuş faiz dərəcələri əsasında dövlətin xeyrinə alınması prosesidir. Bu proses özündə iki mühüm funksiyanı daşıyır. Bu funksiyalara birincisi fiskal funksiya, ikincisi isə stimullaşdırıcı funksiya aid edilir.

Fiskal funksiya vasitəsi ilə dövlət öz vəzifələrini yerinə yetirmək üçün zəruri olan vəsaitləri toplayır, onları akkumulyasiya edərək büdcəsini formalaşdırır, qanun əsasında onlardan istifadə edərək iqtisadi həyatın davamlılığını təmin edir.

İkincisi, stimullaşdırıcı funksiya vasitəsi ilə dövlət vergi dərəcələrinin müəyyən edilməsi, zəruri saydıqda onların dəyişdirilməsi, həmçinin bəzi hallarda vergi güzəştlərinin tətbiq olunması vasitəsi ilə sahibkarlıq müəssisələrinin fəaliyyəti üçün uyğun, məhsuldar şərait yaradır. Dövlətin sahibkarlıq strukturlarının fəaliyyətinin tənzimlənməsində vergilər vasitəsilə iştirak etməsi onun makroiqtisadi vəzifələrin yerinə yetirilməsini vaxtlı-vaxtında təmin etməsi ilə şərtlənir. Bu baxımdan da sahibkarlıq fəaliyyətinin inkişafında vergi tənzimlənməsinin rolu xüsusi əhəmiyyətə malikdir.

**Sahibkarlıq fəaliyyətində vergi tənzimlənməsinin məqsədli istiqamətləri**

Bazar yönümlü iqtisadiyyatın mövcud olduğu bütün ölkələrdə sahibkarlığın inkişaf etdirilməsi, onun bütün parametrlər üzrə tənzimlənməsi iqtisadi siyasətin prioritetlərindən birini təşkil edir.

Çünki bu tip ölkələrdə ümumi daxili məhsulun 70-80 faizi özəl sektorun, ilk növbədə sahibkarlıq müəssisələrinin hesabına formalaşır. Məhz bu baxımdan da sahibkarlıq müəssisələrinin fəaliyyətinin təşkili, tənzimlənməsi və s. daimi olaraq aidiyyatı olan tənzimləyici orqanların diqqət mərkəzində olur.

Sahibkarlıq müəssisələrinin fəaliyyətinin tənzimlənməsində ən mühüm rola malik olan məsələlərdən biri vergi tənzimlənməsi məsələsidir. Bu istiqamətdə əsas hədəf sahibkarlıq müəssisələrinin inkişafında dayanıqlığın təmin edilməsindən ibarətdir. Sahibkarlıq strukturlarında vergi tənzimlənməsinin qarşısında duran mühüm məsələlərdən biri də onların fəaliyyətinin səmərəli təşkil olunmasından ibarətdir. Azərbaycan Respublikasında hal-hazırda sahibkarlıq mühitində gedən mühüm yeniləşmə, eyni zamanda təkmilləşmə prosesində, həmçinin kardinal dəyişikliklər prosesində vergi elementləri həlledici rola malikdir.

İqtisadi ədəbiyyatlar və digər mənbələrdən məlumdur ki, iqtisadiyyatın optimal idarə olunması nəzəriyyəsinə görə vergi sistemi stimullaşdırıcı funksiyanı yalnız xüsusi halda yerinə yetirir. Bu xüsusi hal sahibkarlıq subyekti üzrə bütün vergi ödəmələrinin mənfəətin 35%-dən çox olmadığı haldır. Belə olduqda vergiqoymanın stimullaşdırıcı funksiyası icra olunur. Yəni qeyd edilən hədd daxilində dövlət vergi dərəcələrini müxtəlif istiqamətdə dəyişərək sahibkarlıq strukturlarının fəaliyyətində tənzimləmə aparır. [4, s.22]

İqtisad elminin sübut etdiyi kimi vergiyə cəlbetmənin rasional sisteminin başlıca fərqləndirici xüsusiyyətləri onun ölkə iqtisadiyyatının strukturu ilə, iqtisadiyyatda mövcud olan iqtisadi proporsiyalarla, iqtisadi inkişafın təmin edilməsinə yönələn məqsədlərlə və s. ilə əlaqədardır. Məhz bu parametrləri mövcud olduğuna görə vergi siyasəti işlənib hazırlanarkən onun məqsədli istiqamətləri ölkədə aparılan iqtisadi siyasətin tələblərinə uyğunlaşdırılmalı, qarşıya qoyulan makroiqtisadi vəzifələrin yerinə yetirilməsinə yardımçı olmalıdır. Eyni zamanda bu siyasətin əsas elementləri ölkədə aparılan sosial-iqtisadi fəaliyyətin uğurla reallaşdırılmasını təmin etməlidir.

Sahibkarlıq fəaliyyətində vergi tənzimlənməsinin məqsədli istiqamətləri müəyyən edilərkən vergiqoyma prosesində formalaşan ən mühüm, zəruri münasibətlər nəzərə alınmalıdır. Bu münasibətlər xüsusi parametr və prinsiplərə əsasən qurulmalı, bütövlükdə bu sahədə dövlətin və sahibkarlıq strukturlarının qarşılıqlı münasibətlərini özündə əks etdirməlidir. İqtisad elminə məlum olduğu kimi belə zəruri prinsiplər ilk dəfə Adam Smit tərəfindən işlənib hazırlanmışdır. O öz tədqiqatlarında yazırdı ki, zəruri prinsiplərdən biri ondan ibarətdir ki, hər bir vətəndaş öz imkanı, öz bacarıq və qabiliyyəti, eyni zamanda öz gücü daxilində hökumətin saxlanmasında iştirak etməlidir. Həmin tədqiqtaçı alim yazırdı ki, sahibkarlıq müəssisələrinə münasibətdə vergiqoymanın digər bir mühüm prinsipi ondan ibarətdir ki, hər bir kəsin ödəməli olduğu vergi dəqiq müəyyən edilməlidir. Onun ödənmə müddəti, ödənmə üsulu, ödənişin məbləği, həmçinin digər zəruri parametrlər bütün ödəyicilər üçün aydın və dəqiq olmalıdır [1, s. 46].

Adam Smitin yanaşmasına görə sahibkarlıq müəssisələri üçün vergiqoymanın digər bir prinsipi ondan ibarətdir ki, həmin müəssisələrdən vergi elə bir vaxtda və elə bir üsulla alınmalıdır ki, sahibkar onu bütövlükdə onun üçün uyğun olan vaxtda ödəsin [1, s. 47].

Elə həmin mənbədə rast gəldiyimiz və sahibkarlıq müəssisələri üçün zəruri olan aşağıdakı mühüm prinsiplər formalaşdırılmışdır: 1)Vergilərin bərabərliyi. Dövlət tərəfindən vergi tutulmalarının bütün ödəyicilərə münasibətdə vahid yanaşmasının, vahid tələblər sisteminin mövcud olması. Vergitutma qaydalarının hamı üçün ümumi olması; 2) Vergitutmanın müəyyən olması. Bu müəyyənlik özündə vergilərin dəqiqliyini, aydınlığını, eyni zamanda vergi sisteminin xarakteristikasını əks etdirən parametrlərin sabitliyini əks etdirməlidir; 3) Müəyyən edilmiş vergi dərəcələrinin uzunmüddətli iqtisadi inkişaf dövründə dəyişməz, sabit qalması. Bu tətbiq edilən bütün vergi növlərinə aid edilməlidir; 4)Vergi ödənişlərinin dövlət tərəfindən alınmasının hər bir sahibkarlıq strukturu üçün sadə, anlaşılan və uyğun olması; 5) Vergi ödəmələrinin ödəyicinin gücü daxilində olması və sahibkar fəaliyyəti üçün maneələr yaratmaması [1, s.48].

Sahibkarlıq fəaliyyətinin iqtisadiyyatda artan rolu onun dövlət tərəfindən diqqət mərkəzində saxlanmasını, ehtiyac olduğu hallarda isə bu fəaliyyətə vergi sistemi vasitəsi ilə müdaxilə etməsini

zərurətə çevirir. Hal-hazırda Azərbaycan Respublikasının vergi sistemində mövcud olan vergiyə cəlbetmə sahibkarlıq strukturlarının tələb və maraqlarına cavab verir.

Dünya təcrübəsindən məlumdur ki, sahibkarlıq fəaliyyətinin inkişafında vergi tənzimlənməsi mühüm rola malikdir. Vergi qanunvericiliyi nə qədər sabit, nə qədər dəyişməz olarsa iqtisadi subyektlər də bir o qədər sabit fəaliyyət tempinə malik olarlar. İstənilən iqtisadiyyat tipi şəraitində, xüsusən də bazar iqtisadiyyatında vergi qanunvericiliyinin tez-tez dəyişməsi iqtisadiyyatda formalaşmış olan sabitliyi pozur, makro və mikro səviyyədə həm planlaşmanı, həm də proqnozlaşdırmanı çətinləşdirir.

Qeyd edilənlər nəzərə alınmaqla sahibkarlıq strukturlarının vergiyə cəlb edilmə sistemi elə qurulmalıdır ki, bu sistem son nəticədə həm sahibkarlıq strukturlarını, həm də dövlətin maraqlarını təmin etmiş olsun.

**Sahibkarlıq fəaliyyətinin inkişafının vergilər vasitəsilə stimullaşdırılması**

Bazar iqtisadiyyatı şəraitində sahibkarlıq strukturları iqtisadi inkişafın əsaslarını təşkil etdiklərinə görə, onların fəaliyyəti həmişə dövlətin diqqət mərkəzində olur. Bu baxımdan da dövlət kiçik və orta sahibkarlıq müəssisələrində fəaliyyətin təşkil olunması, onlar üçün uyğun şəraitin yaradılması, onların dayanıqlığının qorunması, onların fəaliyyətində səmərəli nəticələrin əldə olunması və s. üçün müxtəlif vasitələrdən, tənzimləmə metodlarından istifadə edir. Bu vasitələrdən biri də vergi stimullaşdırılması ilə əlaqədardır. Bunun üçün də ən mühüm yollardan biri vergiyə cəlbetmənin metodikasında dəyişikliyin tətbiq olunması vasitəsilə ola bilər. Sahibkarlıq strukturlarının fəaliyyətinin vergilər vasitəsi ilə stimullaşdırılması həm də vergi güzəştlərinin tətbiq olunması vasitəsi ilə həyata keçirilir.

Dünya təcrübəsindən məlum olduğu kimi bir çox ölkələrdə ayrı-ayrı regionların inkişaf səviyyəsinin fərqli olması nəticəsində sahibkarlıq strukturlarının aktivlik səviyyəsinin aşağı olması səbəbindən orada tətbiq edilən vergilərin diferensasiyası aparılır. Bu həm də regionun sosial-iqtisadi inkişafı səviyyəsi ilə əlaqələndirilir. Əgər regionun sosial-iqtisadi inkişaf səviyyəsi kifayət dərəcədə yüksək olarsa, bu halda vergiləri həmin regiondakı konkret istehsal istiqamətinin prioritetliyi baxımından diferensiallaşdırmaq lazımdır. Yox əgər region inkişaf baxımından zəif səviyyədədirsə, bu halda həmin regionda maksimum dərəcədə mümkün olan vergi güzəştlərini tətbiq etmək lazımdır ki, orada sahibkarlıq kifayət dərəcədə inkişaf etdirilə bilsin. Beləliklə, regionlar üzrə vergiyə cəlbetmədə diferensiasiyanın tətbiq olunması sahibkarlıq müəssisələrinin fəaliyyətinin gücləndirilməsində mühüm stimullaşdırıcı təsirə malik ola bilər [5, s.5].

Sahibkarlıq müəssisələrində, xüsusilə də kiçik və orta sahibkarlıq müəssisələrində vergi stimullaşdırılmasının mühüm vasitələrindən biri də əsasən istehsal fəaliyyəti ilə, xüsusən də innovativ istehsal fəaliyyəti ilə məşğul olanlara vergi güzəştlərinin tətbiq olunmasından ibarətdir. Belə güzəştlərin tətbiqi mexanizmi və metodikası elə olmalıdır ki, o təsiredici gücə malik olsun. Bunun üçün də belə güzəştlər yeni müəssisələrdə uzunmüddətli, yəni ən azından istehsal məhsulu bazara çıxarılıb öz bazarını tutan dövrə qədər tətbiq olunmalıdır. Belə olduğu halda müəssisə özünün istehsal prosesini səmərəli şəkildə qura bilər, verginin stimullaşdırıcı rolu isə müəssisəyə öz faydasını verə bilər.

Dünya təcrübəsində sahibkarlıq müəssisələrində vergiyəcəlbetmə ilə əlaqədar mövcud olan daha bir müsbət meylin tətbiqi bu sahədə daha yüksək səmərə verə bilər. Bu ondan ibarətdir ki, sahibkarlıq müəssisələri hüquqi şəxs kimi qeydiyyata alınarkən mövcud olan vergiyəcəlbetmə şərtləri və dərəcələri onlar üçün bir neçə il müddətində dəyişməz qalmalıdır. Çünki həmin parametrlər üzrə dəyişmələr mənfi meyil yaradarsa bu sahibkarlıq fəaliyyətinin səmərəliliyinin azalmasına səbəb ola bilər. Bu səbəbdən də stimullaşdırmanın müsbət təsirini təmin etmək üçün qeyd edilən şərt tətbiq olunmalıdır.

Sahibkarlıq müəssisələrinin fəaliyyətində vergi stimullaşdırılmasının mühüm bir amili kimi onların fəaliyyətində “vergi tətilləri”nin tətbiq olunması ola bilər. Bu tətillər elə sahibkarlıq müəssisələri üçün tətbiq olunmalıdır ki, həmin müəssisələr ölkə iqtisadiyyatı üçün strateji əhəmiyyət daşıyan məhsullar olsun və ya həmin məhsullar əvvəllər ölkədə istehsal olunmasın. Belə məhsullar

həm daxili bazarı təmin etməli, həm də rəqabətqabiliyyətliliyinə görə xarici bazarlara çıxarılmalıdırlar. Belə olduğu halda həmin müəssisələrə tətbiq edilən vergi tətillərinin müddəti 3 il, 5 il, bəzən də çox ola bilər. Müddət ölkədə aparılan iqtisadi siyasətin hədəf və prioritetlərinə uyğun olmalıdır. Bu uyğunluğu nəzərə alaraq, eyni zamanda “vergi tətilləri”nin səmərəliliyini təmin etmək üçün sahibkarlıq strukturlarına əlavə olaraq güzəştlər tətbiq olunmalıdır. Bu güzəştlər həmin müəssisələrin idxal etdikləri xammal və avadanlıqların idxal vergisindən azad olmaları və həmçinin əsas fondların sürətli amortizasiyası ilə bağlı olmalıdır. Belə güzəştlərin tətbiq olunması sahibkarlıq strukturlarında yüksək stimullaşdırıcı atmosfer yaradır.

Sahibkarlıq müəssisələrində vergilərin stimullaşdırıcı rolunu yüksəltmək üçün dünya təcrübəsində istifadə edilən metodlardan biri də investisiya fəaliyyəti ilə bağlıdır. Həmin təcrübəyə əsasən müəssisələrin stimullaşdırılması üçün yüksək texnoloji və elm tutumlu sahələrdə investisiya, istehsalın genişləndirilməsinə yönəldilən vəsaitlər vergidən azad olunurlar [4, s.2].

Qeyd edilən stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi nəticəsində sahibkarlıq strukturlarının fəaliyyəti daha da genişlənir, sürətlənir, vergi sistemi isə təkmilləşir. Belə olan halda verginin stimullaşdırıcı rolu özünü daha da bariz şəkildə büruzə verir. Qeyd edilən stimullaşdırıcı tədbirlər həyata keçirilərkən büdcəyə daxilolmalar azala bilər. Lakin təcrübə göstərir ki, vergi dərəcələrinin azalması və eyni zamanda vergi güzəştlərinin tətbiq edilməsi vergitutma bazasını genişləndirir ki, onun da nəticəsində büdcəyə daxilolmalar əvvəlkindən də artıq olur.

Qeyd edilənlərin səmərəli nəticələrə gətirib çıxarması üçün paralel olaraq vergi prosesinin özü də sadələşdirilməlidir. Bu sadələşdirmə özündə vergi prosesinin mühüm elementlərini əks etdirməlidir. Onlara, yəni həmin elementlərə birincisi mübahisəli məsələlərin mövqelərin razılaşdırılması qaydasında vergi hesabatları veriləna qədər həll olunması aiddir. İkincisi, vergi prosesi zamanı daha çox, daha tez-tez rast gəlinən mübahisəli məsələlərin həll olunması istiqamətində tövsiyə təlimatlarının işlənib hazırlanması aid olmalıdır. Üçüncü elementə isə vergi mübahisələrinin həll edilməsinin sadələşdirilmiş və sürətli şəkildə realizə oluna biləcək prosedurların hazırlanması və tətbiqi aid edilməlidir. Bu elementlərin tətbiq olunması təhlili aparılan problemin səmərəli həllini təmin edə bilər [3, s.37].

Dünya təcrübəsi ilə yanaşı hal-hazırda respublikamızda sahibkarlıq fəaliyyətinin vergilər vasitəsilə tənzimlənməsi məqsədilə çoxsaylı üsullardan istifadə edilir. Belə ki, Azərbaycan Respublikası Vergi Məcəlləsinin 106-cı maddəsində hüquqi şəxslərin mənfəət vergisindən azadolmalar və güzəştlər, 164-cü maddəsində əlavə dəyər vergisi üzrə vergi ödəməkdən azad edilmə, 199-cu maddədə əmlak vergisi üzrə vergi güzəştləri və azadolmalar, 203-cü maddədə torpaq vergisi üzrə vergi güzəştləri, 218-1 saylı maddədə sadələşdirilmiş vergi üzrə azadolmalar və güzəştlər öz əksini tapmışdır. Bununla yanaşı həmin məcəllənin 222.5-ci maddəsində koronavirus pandemiyasının yayılması nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar tətbiq edilən müvəqqəti vergi rejiminin tətbiq edildiyi sahə və şəxslər, 224-cü maddədə isə onlara aid edilən azadolmalar və güzəştlər əks olunmuşdur.

Vergi Məcəlləsinin 106-cı maddəsində hüquqi şəxslərin mənfəət vergisindən azadolmalar və güzəştlərin tətbiqində əsas məqsəd yeni yaradılan sənaye və texnologiyalar parklarının, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan hüquqi şəxslərin, mikrosahibkarlıq subyektlərinin, kiçik orta biznes klaster şirkətinin, “Startap” şəhadətnaməsi olanların fəaliyyətinin stimullaşdırılması yolu ilə sürətləndirilməsindən və genişləndirilməsindən ibarətdir [2].

Qeyd edilən məqsədi daşıyan əlavə dəyər vergisi üzrə azadolmalar məcəllənin 164-cü maddəsi üzrə kənd təsərrüfatı məhsullarının istehsalçılarına, lizinq obyekti olan əsas vəsaitlərin idxalına, sənaye və texnologiya parkında istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübi konstruktor işlərinin görülməsi ilə məşğul olanlara, investisiya təşviqi sənədi almış hüquqi şəxslər və fərdi sahibkarlara, kiçik orta biznes klaster şirkətlərinə və s. aid edilir.

Vergi Məcəlləsinin 199-cu maddəsində öz əksini tapan əmlak vergisi üzrə vergi güzəşt və azadolmaları sənaye, yaxud texnologiyalar parkının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərə, kənd təsərrüfatı məhsullarının

istehsalı ilə məşğul olan hüquqi və fiziki şəxslərə, investisiya təşviqi sənədi almış olan hüquqi şəxs və fərdi sahibkarlara, makrosahibkarlıq subyektlərinə, kiçik orta biznes klaster şirkətlərinə şamil edilir [2].

Bundan əlavə Vergi Məcəlləsinin 207-ci maddəsində nəzərdə tutulan torpaq vergisi üzrə vergi güzəştləri sənaye, yaxud texnologiyalar parkının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslərə, investisiya təşviqi sənədi almış hüquqi şəxs və fərdi sahibkara, kiçik orta biznes klaster şirkətlərinə və s. aid edilir.

Həmçinin Vergi Məcəlləsinin 218-1 saylı maddəsində sadələşdirilmiş vergi üzrə azadolmalar və güzəştlərin tətbiq edildiyi şəxslər və fəaliyyət növləri öz əksini tapmışdır. Onlara kənd təsərrüfatı məhsullarının istehsalçıları və ƏDV məqsədləri üçün qeydiyyata alınmayan və əməliyyatlarının həcmi ardıcıl olaraq 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatadək olan rezident müəssisənin təsisçisi (payçısı) və yaxud səhmdarları olan şəxslər və s. aid edilir.

Verginin stimullaşdırıcı məqsədlərinin icrası və həmçinin sahibkarlığın davamlı inkişafının təmini məqsədilə Vergi Məcəlləsinin 224-cü maddəsində koronovirus pandemiyasının təsiri nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar tətbiq edilən müvəqqəti rejim ölkə iqtisadiyyatının bütün sahələrini əhatə etmişdir.

### *Nəticə*

Aparılan təhlillər nəticəsində belə bir nəticəyə gəlmək olar ki, sahibkarlıq fəaliyyətinin sürətli, davamlı inkişaf etdirilməsi üçün ən zəruri olan amillərdən biri məhz bu sferada vergi tənzimləməsindən ibarətdir. Vergi tənzimlənməsi vasitəsi ilə müasir sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi məqsədilə uyğun, məhsuldar şəraitin yaradılması üçün ən vacib şərtlərdən biri vergi sahəsində təkmil qanunvericiliyin işlənib hazırlanması, qəbul edilməsi və onun tətbiqi mexanizminin işə salınmasıdır. Bu mexanizm özündə vergiyə cəlbetmənin çoxsaylı mühüm elementlərini əks etdirməlidir. Onlardan biri də bu prosesin proqram-məlumat təminatından ibarətdir. Onun tətbiq olunması vergiyə cəlbetmə bazasının müəyyən edilməsində və vergilərin hesablanmasında mühasibat səhvlərinin minimuma endirilməsini təmin edir. Nəticədə isə çoxsaylı, əksər hallarda isə səmərəsiz vergi yoxlamalarına ehtiyac qalmır.

Respublikamızda sahibkarlıq fəaliyyətinin sürətlə və dayanıqlı şəkildə inkişaf etdirilməsi, həmçinin bu fəaliyyət növünün genişləndirilməsi məqsədilə vergi tənzimlənməsinin rolunun artırılması üçün dünya ölkələrinin təcrübəsində formalaşan müsbət meyillərin tətbiq olunması zəruridir.

Həmin müsbət meyillərin tətbiq olunması vasitəsi ilə ölkədə təkmil vergi siyasəti formalaşdırmaq, iqtisadiyyatda prioritet kimi qəbul edilən sahələrin inkişafını sürətləndirmək, iqtisadi siyasətdə nəzərdə tutulan hədəflərə çatmaq, iqtisadi artım tempini artırmaq, cəmiyyətdə formalaşan sosial problemlərin tez bir zamanda həll edilməsini və s. təmin etmək olar.

### ƏDƏBİYYAT


1. Адам Смит. «Исследование о природе и причинах богатства народов», Москва, ИНФРА.М – 2016, 270 стр.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi (son dəyişiklik və əlavələr nəzərə alınmaqla) 2021.
3. Kəlbiyev Y.A. «Vergi nəzarətinin təşkilinin nəzəri və praktiki aspektləri» (Azərbaycan Respublikasının Vergi Xəbərləri, Bakı, 2011, №2, səh 37-62.
4. Акаева В.В. «Об организации налогового контроля» Зарубежный опыт. Налоговый вестник. №4, 2020, стр 19-23.
5. Дунаев С.П. «Модернизация налоговых органов США» Российский налоговый курьер. 2018, №3, стр 56-74.

***Джейхун Шакир оглы Тагиев***
***Институт Экономики НАНА, диссертант***
***Электронная почта: jeyhun_85@mail.ru***

***Роль налогового регулирования в развитии предпринимательской деятельности***

***Резюме***

**Цель исследования** – разработать механизм использования аспектов налогового регулирования в развитии предпринимательской деятельности в нашей стране.

**Методология исследования** – методология налогообложения для развития деятельности в структурах компаний, льготы, используемые для стимулирования деятельности, и методы реализации льгот.

**Актуальность применения исследования**–повышение эффективности за счет включения компонентов налогового регулирования в развитие деятельности бизнес-структур.

**Результаты исследования -** В ходе исследования установлено, что одним из важнейших способов обеспечения эффективности деятельности бизнес-структур является использование компонентов налогового регулирования.

**Оригинальность и научная новизна исследования-**наряду со стимулами, используемыми в нашей стране при налогообложении структур компаний, исследовательские предложения по применению благоприятных тенденций в мировой практике являются уникальными и новыми.

***Ключевые слова: предпринимательство, налоги, налоговое регулирование, налоговые льготы, налоговые каникулы, стимулирование.***

***Jeyhun Shakir Taghiyev***
***Institute of economics of ANAS, PhD student***
***E-mail: jeyhun_85@mail.ru***

**The role of tax regulation in the development of entrepreneurial activity**

***Summary***

**The goal of the study** – design the mechanism for utilizing tax regulation aspects in the development of entrepreneurial activity in our country.

**Research methodology** – Methodologies of taxation for the development of activity in company structures, privileges used to stimulate activity, and techniques of realizing exemptions.

**Importance of research application** – Increasing efficiency by incorporating components of tax regulation into the development of business structures' activities.

**Research results** – The study found that one of the most important ways to ensure the efficiency of business structures is to use components of tax regulation.

**Originality and scientific novelty of the research** – Along with the incentives utilized in our country’s taxation of company structures, the research proposals for applying favorable trends in global practice are unique and novel.

***Key words: entrepreneurship, taxes, tax regulation, tax breaks, tax holidays, stimulation.***